# Biz birlikdə güclüyük

## Mobil qruplar tərəfindən reydlər davam etdirilir

Rayonda fəaliyyət göstərən mobil qruplar ölkə ərazisində tətbiq olunmuş xüsusi karantin rejimi



ilə əlaqədar rayonun ictimai iaşə, ticarət və digər obyektlərində müəyyən edilmiş qaydalara əməl olunması vəziyyətini öyrənmək və lazımi tədbirlər görmək üçün reydlər aparmışlar. Reydlər zamanı tibbi maskadan istifadənin və sosial məsafənin saxlanılmasının vacibliyi bir daha vətəndaşların diqqətinə çatdırılıb. Gün ərzində 38 ticarət obyektinə və 51 digər vətəndaşların daha çox müraciət etdiyi obyektlərə baxış keçirilib. 2 dünyasını dəyişmiş mərhumun ailəsinə yas mərasiminin keçirilməməsi ilə bağlı xəbərdarlıq edilmişdir. Reydlər və maarifləndirmə tədbirləri mobil qruplar tərəfindən ardıcıl olaraq davam etdiriləcək.

## Azərbaycan bu dəfə də birincilərdən olacaq

Hazırda bir sıra ölkələr vaksinlər üzərində iş aparır və ön sifarişlər qəbul edirlər.

Sentyabrın 18-də İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və GAVI təşkilatı arasında imzalanmış sazişə əsasən, ÜST tərəfindən təsdiqlənmiş və tələblərə cavab verən peyvənd istehsal olunduqda tez bir zamanda təşkilatın başqa üzv ölkələri ilə bərabər Azərbaycan da təsdiqlənmiş peyvəndlə təmin olunacaq.

ÜST-nin Azərbaycan nümayəndəliyi rəsmi Bakının COVAX mexanizminə qoşulma təşəbbüsünü alqışlayıb. ÜST-nin Azərbaycan nümayəndəliyindən bildirilib ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və GAVI arasında bağlanan sazişə görə, ÜST-nin prekvalifikasiya mərhələsindən keçmiş COVID-19 əleyhinə peyvənd istehsal olunduqda Azərbaycan peyvəndi ilk əldə edən ölkələrdən biri olacaq.

TƏBİB İdarə Heyətinin sədri Ramin Bayramlı bu barədə danışarkən bildirib ki, vaksinasiya üçün ölkənin tələbi üzrə hesablamalar əhalinin ilkin olaraq 20 faizinə peyvəndin vurulmasının epidemioloji vəziyyətə effektiv nəzarət etmək üçün kifayət edə biləcəyini göstərir. Lakin vaksinlər üzrə vacib tələblər də mövcuddur. Belə ki, onlar effektiv və təhlükəsiz, kənar mənfi təsirləri minimum səviyyədə və virusa qarşı ən azından 50-70 faiz qoruyuculuq qabiliyyətində olmalıdır.

R. Bayramlının sözlərinə görə, Azərbaycan əhalisinin 10 faizə qədəri üçün peyvəndin COVAX çərçivəsində alınması nəzərdə tutulub. Sazişə əsasən, vaksinin ümumi dəyərinin bir hissəsi, yəni 3 milyon 235 min 840 dolları avans məbləği şəklində indi ödənilməlidir. Vaksinin tam təhlükəsizliyi ilə bağlı sınaqlar başa çatdıqdan sonra alacağımız vaksinin məbləğinin digər hissəsi ödənilməlidir. Hökumətin qərarına əsasən, bu sazişin icrasından irəli gələn məsələlərin, yəni COVAX platforması çərçivəsində ÜST tərəfindən təsdiq olunmuş vaksinlərin alınaraq Azərbaycana gətirilməsinin maliyyə xərcləri Koronavirusla Mübarizəyə Dəstək Fondundan ödəniləcək.

Fondun vəsaitinin sərəncamçısı Nazirlər Kabinetidir. Baş Nazirin apreldə imzaladığı qərarla fondda toplanmış vəsaitdən istifadə zamanı şəffaflığın təmin edilməsi və vəsaitdən istifadə barədə ictimaiyyətin mütəmadi məlumatlandırılması məqsədilə Nazirlər Kabineti yanında İctimai Nəzarət Şurası yaradılıb. Fondun fəaliyyətində tam şəffaflığın təmin edilməsi çərçivəsində bütün ianələr və onları edən fiziki və hüquqi şəxslər barədə fondun rəsmi internet səhifəsində məlumat yerləşdirilir.

Virusa kütləvi yoluxmanın qarşısı alınıb, gündəlik statistika sayı sabitləşib. Lakin bu, heç də koronavirusun təsir gücünün azalması kimi qəbul edilməməlidir.

Təmasların sayı artdıqca isə yoluxmaların da çoxalması labüd haldır. Belə olan halda qarşımızda duran əsas vəzifə karantin qaydalarına daha ciddi riayət etməkdir.

## Qəbələ abituriyentləri bu il

Azərbaycanda təhsilin inkişafına, gənclərin sağlam və savadlı böyümələrinə dövlətimiz tərəfindən hər cür qayğı və diqqət göstərilir. Təhsilin günün tələblərinə cavab verməsi, savadlı gənclərin yetişdirilməsi üçün orta məktəblərin və ali təhsil ocaqlarının əsaslı təmiri və yeni müasir tipli məktəb binalarının tikintisi sahəsində əhəmiyyətli işlər görülmüşdür. Dövlətimiz gənclərin bilikli, savadlı olmaları üçün lazimi şərait yaratmışdır.

Prezident İlham Əliyevin fərman və sərəncamları əsasında ölkəmizdə təhsil üzrə strategiya və proqramlar qəbul edilib. Təhsilin keyfiyyətinin artırılmasında məktəb infrastrukturunun yeniləşməsinə xüsusi diqqət göstərilir.

Rayonumuzda dövlət başçısının təhsilə olan bu münasibəti xüsusilə razılıqla qarşılanır. Təhsil işçiləri-müəllimlər bacarıqlı və yüksək savadlı kadrların yetişdirilməsi üçün vəziyyətdən asılı olmayaraq səylə çalışırlar. Məlum olduğu kimi, mart ayından etibarən COVİD-19 koronavirus pandemiyası ilə əlaqədar təhsilin dayandırılması, yeni sistemə keçilməsi bəzi çətinliklər yaratdı. Ancaq bacarıqlı müəllimlərimiz yeni təhsil sisteminə tez alışdılar və dərsləri şagirdlərə onlayn şəkildə təbliğ etməyə çalışdılar. Artıq çəkilən zəhmət göz qabağındadır.

Belə ki, 2019-2020 ci tədris ilində Qəbələ rayonu üzrə 1135 şagird tam orta təhsil haqqında attestat əldə etmişdir. 1135 şagirddən 485 şagird ali məktəblərə daxil olmuşdur. Rayon üzrə 32 şagird 600 və daha yüksək bal toplamış, 90 şagird isə 500 və daha artıq bal toplamışdır. Rayon üzrə Qəbələ şəhər 4 saylı məktəbdən 96 şagirddən 60 şagird, Vəndam qəsəbə 1 saylı tam orta məktəbdən 37 şagird, Qəbələ şəhər 3 saylı tam orta məktəbdən 20 şagird, Nohurqışlaq kənd tam orta məktəbdən 18 şagird, Mıxlıqovaq, Hacıalılı, Mirzəbəyli və şəhər 1 saylı tam orta məktəbin hər birindən 17 şagird ali məktəblərə daxil olmuşdur. Nohurqışlaq kənd tam orta məktəbdən ali məktəbə daxil olan 18 şagirddən 2-si həmçinin Respublika Fənn Olimpiadasının qalibi olmuşdur.

Ali məktəblərə qəbul olan gənclərimizin ölkəmizdə və ölkəmizdən kənarda təhsil alarkən rayonumuzun adını həmişə uca tutacaqlarına inanırıq.

**Arifə BAYRAMOVA,**
**rayon təhsil şöbəsinin müdiri.**

## 2019-2020-ci tədris ilində 600 və daha çox bal toplamış məzunlar

| Adı,soyad,ata adı | Qrup | Topladığı bal | Məktəbin adı | Qəbul olunduğu ali məktəbin adı | İxtisası |
|---|---|---|---|---|---|
| Məsimov İsmayıl Cahangir oğlu | I | 688 | Nohurqışlaq kənd tam orta məktəb | Bakı Ali Neft Məktəbi | Proseslərin avtomatlaşdırılması mühəndisliyi |
| Əmirova Aytac Rakif qızı | I | 686 | Şəhər 4 saylı tam orta məktəb | Bakı Ali Neft Məktəbi | Proseslərin avtomatlaşdırılması mühəndisliyi |
| Ələsgərli Zeynəb Ramil qızı | III | 679 | Vəndam qəsəbə 1saylı tam orta məktəbi | Bakı Dövlət Universiteti | Hüquqşünas |
| Haqverdiyev Bilal Nəzarət oğlu | I | 679 | Nohurqışlaq kənd tam orta məktəb | Bakı Ali Neft Məktəbi | Proseslərin avtomatlaşdırılması mühəndisliyi |
| Əliyeva Dəniz Vüqar qızı | I | 676 | Vəndam qəsəbə 1saylı tam orta məktəbi | Bakı Ali Neft Məktəbi | Proseslərin avtomatlaşdırılması mühəndisliyi |
| Məlikov Anar Şaiq oğlu | III | 670 | Şəhər 2 saylı tam orta məktəb | Bakı Dövlət Universiteti | Hüquqşünas |
| Cabbarlı Nərmin Sidqi | IV | 669 | Şəhər 3 saylı tam orta məktəb | Azərbaycan Tibb Universiteti | Müalicə işi |
| Qismətli Nəzrin Vüqar | I | 666 | Şəhər 4 saylı tam orta məktəbi | Azərbaycan Diplomatik Akademiyası | Kompüter elmləri |
| Qəribli Sübhan Rüstəm oğlu | II | 660,4 | Şəhər 4 saylı tam orta məktəb | Azərbaycan Dövlət İqtisad Universiteti | Maliyyə işi |
| Ədilova Xalidə Yadigar | IV | 653 | Mamaylı kənd tam orta məktəbi | Azərbaycan Tibb Universiteti | Tibb işi |
| Səlimova Lalə Seymur qızı | I | 652 | Şəhər 3 saylı tam orta məktəb | ADNA, ABŞ-Corciya Universiteti | İnformasiya texnologiyaları |
| Nəbiyev Təhsim Qalib oğlu | II | 645 | Şəhər 4 saylı tam orta məktəbi | Azərbaycan Dövlət İqtisad Universiteti | Maliyyə kredit |
| Yaşarlı Səidə Asim qızı | IV | 643 | Vəndam qəsəbə 1saylı tam orta məktəbi | Azərbaycan Tibb Universiteti | Müalicə işi |
| Muradova Səadət Donməz qızı | IV | 631 | Mirzəbəyli kənd tam orta məktəbi | Azərbaycan Dillər Universiteti | İngilis dili müəllimliyi |
| Rəcəbalıyev Sübhan Yaşar oğlu | II | 630 | Hacıalılı kənd tam orta məktəbi | Azərbaycan Dövlət İqtisad Universiteti | Maliyyə |
| Məcidov Abdulla Nadir oğlu | I | 628,7 | Aydınqışlaq kənd tam orta məktəbi | Azərbaycan-Fransız Universiteti | Geodeziya |
| Abuşova Məleykə Vüqar qızı | II | 628 | Nohurqışlaq kənd tam orta məktəbi | Azərbaycan Dövlət İqtisad Universiteti | Maliyyə kredit |
| Zeynallı Etibar Polad oğlu | I | 623 | Hacıalılı kənd tam orta məktəbi | Azərbaycan Dövlət Neft və Sənaye Universiteti | İnformasiya texnologiyaları |
| Göyüşova Nazpəri Araz qızı | II | 622 | Şəhər 5 saylı tam orta məktəb | Azərbaycan Dövlət İqtisad Universiteti | Mühasibat uçotu |
| Muradova Nərmin Kamran qızı | III | 620 | Həmzəli kənd tam orta məktəbi | Bakı Dövlət Universitet | Hüquqşünas |
| Süleymanov Fuad Rauf oğlu | I | 619 | Şəhər 5 saylı tam orta məktəb | Azərbaycan Turizm və Menecment Universiteti | İnformasiya texnologiyaları |
| Kərimova Aysel Anar qızı | III | 614,1 | Şəhər 4 saylı tam orta məktəb | Azərbaycan Dillər Universiteti | Tərcüməçi |
| İsayeva Elvina Allahverdi qızı | III | 614 | Vəndam qəsəbə 2 saylı tam orta məktəbi | Bakı Dövlət Universiteti | Hüquqşünas |
| Bilallı Jalə Feyzulla qızı | III | 613 | Vəndam qəsəbə 1 saylı tam orta məktəb | Bakı Dövlət Universiteti | Hüquqşünas |
| Şərifova Aynaz Habil qızı | III | 611,4 | Şəhər 4 saylı tam orta məktəb | Azərbaycan Dillər Universiteti | İngilis dili müəllimliyi |
| Eyyublu Sərxan Qəhrəman oğlu | III | 610 | Məmmədağalı kənd tam orta məktəbi | Bakı Dövlət Universiteti | Hüquqşünas |
| Məmmədova Gülanə Elmdar qızı | III | 609 | Soltannuxa kənd tam orta məktəbi | Bakı Dövlət Universiteti | Hüquqşünas |
| Ağayeva Fidan Sabir qızı | I | 609 | Şəhər 3 saylı tam orta məktəb | Azərbaycan Dövlət İqtisad Universiteti | İqtisadiyyat |
| Sənyarlı Aydın Vüqar oğlu | I | 607 | Vəndam qəsəbə 1saylı tam orta məktəb | Bakı Mühəndislik Universiteti | İnformasiya texnologiyaları |
| Yaralıyev Şamil Nazim oğlu | III | 606,7 | Məmmədağalı kənd tam orta məktəbi | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası | |
| İbrahimov Əziz Elman oğlu | IV | 602 | Şəhər 4 saylı tam orta məktəb | Azərbaycan Tibb Universiteti | Müalicə işi |
| Ağarzayeva Gülay Şahin qızı | II | 600 | Zarağan kənd 1 saylı tam orta məktəbi | Azərbaycan Dillər Universiteti | İngilis dili müəllimliyi |